## *Gediş kartından istifadə qaydaları**

- Kartın satış qiyməti 2 (iki) manatdır, bu məbləğ balansa daxil deyil.

- Kartın balansı stansiyalarda yerləşən elektron köşklər vasitəsilə və yaxud bilet kassalarında istənilən məbləğdə artırıla bilər.

- Kartdan hər gedişə yalnız bir şəxs istifadə edə bilər.

- Sərnişin qatara minmək üçün turniketdən keçdikdən sonra 15 dəqiqəyədək müddətdə gedişdən imtina edərsə, onun kartından çıxılmış vəsait geri qaytarılır. Bu müddət bitdikdən sonra sərnişin gedişdən imtina edərsə, giriş stansiyasından ən uzaq stansiyaya olan məsafə üçün nəzərdə tutulmuş gediş haqqı kartın balansından avtomatik çıxılır.

- Kart geri qaytarılarkən:

✓ kartın dəyəri və balansında olan pul tam şəkildə sərnişinə ödənilir;
✓ kart istifadəyə yararsız halda olduqda, onun dəyəri istisna olmaqla, balansında olan pul tam şəkildə sərnişinə ödənilir.

- Standart vaqona minik üçün kartın balansında minimum 40 (qırx) qəpik vəsait olmalıdır.

- Sərnişin giriş və çıxış stansiyalarında kartı turniketdə oxutdurur və kartın balansından səfər edilmiş məsafəyə uyğun vəsait çıxılır. Sərnişin hər hansı bir stansiyada kartı oxutdurmazsa, giriş stansiyasından ən uzaq stansiyaya olan məsafə üçün nəzərdə tutulmuş gediş haqqı kartın balansından avtomatik çıxılır.

** bu qaydalar biznes klass vaqonu ilə səfər edəcək sərnişinlərə şamil olunmur. Biznes klass vaqonu ilə səfər edəcək sərnişin bilet kassalarında və ya köşklərdə gediş sənədi (bilet) əldə etməlidir*